*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

https://doi.org/10.62837/2024.11.179

**MƏMMƏDOV SABİR RÜSTƏM OĞLU**
P.ü.f.d, dosent
vilayetmemmedov 1980@ mail/ru
https:// orcid.orq /0009-0006-0671-1067
**ORUCOV ZAKIR ŞÜKÜR OĞLU**
zakirorucov.55@gmail.ru
ADPU-nun Ağcabədi filialı

# ƏCDADLARIMIZIN İZLƏRİ

## (*Makrotoponimər və mikrotoponimlər*)

XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasının Laçın rayonunun Sadınlar, Hacılar, Kosalar(Ağoğlan) kəndləri və eləcə də Qərbi Azərbaycanın ərazisində yerləşən və Laçın rayonunun kəndləri ilə həmsərhəd olan Xəznəvar (Xoznavar), Bayandur(Bəyəndur), kəndlərinin adlarının yaranma tarixi ilə bağlı şərhlərin verilməsinə çalışılmışdır. Bu kəndlərin inzibati ərazisi ilə həmsərhəd olan və Qaragöl yaylağına qədər geniş bir ərazidə əcdadlarımızın yaratdığı toponimlər dövrümüzə qədər gəlib çatmışdır. Toponimlər sübut edir ki, bu kəndlərin əsas əhalisi lap qədim dövrlərdən türksoylu etnoslar olub. Ermənilər isə buralara sonradan gəlmədir. Məqalədə həmçinin ermənilərin ötən əsrin əvvəllərində təcavüzü nəticəsində bir çox kəndlərin yer üzündən tamamilə silinməsindən də danışılır.

**Açar sözlər:** Toponimlər, Sadınlar, Hacılar, Kosalar (Ağoğlan), Xəznəvar (Xoznavar), Bayandur( Bəyəndur)

**MAMEDOV SABIR RUSTAM**
**ORUJOV ZAKIR SHUKUR**

# TRACES OF OUR ANCESTORS

## *(Macrotoponyms and Microtoponyms)*

**SUMMARY**

In the article, an attempt was made to comment on the history of the names of the villages of Sadinlar, Hacilar, Kosalar (Agoglan) of the Lachin region of the Republic of Azerbaijan, as well as Khaznavar (Khoznavar), Bayandur (Bayandur), which are located in the territory of Western Azerbaijan and border the villages of the Lachin region. The toponyms created by our ancestors in a wide area bordering the administrative territory of these villages and up to the Karagöl plateau have come down to our time. The toponyms prove that the main population of these villages has been Turkic ethnos since ancient times. Armenians came here later. The article also talks about the destruction of many villages as a result of Armenian aggression at the beginning of the last century.

**Key words**: Toponyms, Sadinlar, Hajilar, Kosalar (Agoglan), Khaznavar (Khoznavar), Bayandur.

**МАМЕДОВ САБИР РУСТАМ**
**ОРУДЖОВ ЗАКИР ШУКУР**

**РЕЗЮМЕ**

В статье предпринята попытка прокомментировать историю названий сел Садинлар, Хаджилар, Косалар (Агоглан) Лачинского района Азербайджанской Республики, а также Хазнавар (Хознавар), Баяндур (Баяндур). , которые расположены на территории Западного Азербайджана и граничат с селами Лачинского района. До нашего времени сохранились топонимы, созданные нашими предками на обширной территории, граничащей с административной территорией этих сел и вплоть до плато Карагёль. Топонимы доказывают, что основное население этих селений издревле составляло тюркский этнос. Армяне пришли сюда позже. В статье также говорится об уничтожении многих сел в результате агрессии армян в начале прошлого века.

**Ключевые слова**: Топонимы, Садынлар, Гаджилар, Косалар (Агоглан), Хазнавар (Хознавар), Баяндур, Ханазак.

***Keçmiş Zəngəzur qəzasının indiki Laçın rayonunun və Ermənistan Respublikasının Gorus rayonunun Qaragöl yaylağı səmtində olan hər iki tərəfdən sərhədə yaxın ərazilərdə olan toponimlərimiz haqqında.***

Zaman- zaman Zəngəzurda, Qərbi Azərbaycan torpaqlarında ermənilərin təcavüzü nəticəsində qəsb olunmuş türk kəndlərinin əhalisi zəngin tarix yaratmış, lakin bu tarix ermənilər tərəfindən ya özününküləşdirilmiş, ya da tamamilə yox edilmişdir. Buna baxmayaraq, əcdadlarımızın əsrlər boyu yaşadıqları yer və yurdların bir çox türk mənşəli adları bu gün də yaşamaqdadır və hətta bir çoxu ermənilərin özləri tərəfindən də işlənir. Bunu nəzərə alıb bu məqalədə keçmiş Zəngəzur qəzasına məxsus olan və bu gün Ermənistanın Gorus rayonunun və Azərbaycanın Laçın rayonunun Qaragöl səmtindəki makro və mikro toponimləri – vaxtilə dədə-babalarımıza məxsus olmuş yer-yurd adlarının bir qismini bu yerləri yaxşı tanıyan, hər qarışına bələd olan bir adam kimi gələcək nəsillərə çatdırmağı özümüzə borc bildik. Çünki bunlar xalqımızın yaratdığı zəngin tariximizin ayrılmaz bir parçasıdır. Ermənilər bu adları nə qədər dəyişdirsələr də, xalqımızın maddi –mədəni, tarixi abidələrini məhv etməyə çalışsalar da əcdadlarımızın izlərini bu torpaqlardan silə bilməzlər.

Azərbaycanın Laçın rayonunun, Sadınlar, Hacılar, Kosalar, Qərbi Azərbaycanın Xəznəvar (Xoznavar), Bayandur (Bəyəndur) kəndlərində yaşamış əcdadlarımıza məxsus çoxlu türk mənşəli toponimlər var. Onlardan bir qismini nəzərdən keçirək.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

**Ağ dərə -** 1920- ci ilə qədər əhalisi etnik türklərdən ibarət olan və hazırda Ermənistan Respublikasının tabeçiliyində olan qədim Bayandur (Bəyəndur) kəndinin ərazisində böyük dərə. Dəniz səviyyəsindən 1780-1970 metr yüksəklikdə Minkənd – Gorus yolu (bu yola el arasında Cəddə yolu deyilir) bu dərədən keçir. Uzunluğu 2 km - ə yaxın olan bu dərədə çoxlu bulaqlar var. Dərənin adı orada olan Ağ qayanın adından götürülmüşdür. Dərə Bayandur kəndinin qərbində, Azərbaycan – Ermənistan sərhədinin 6 kilometrliyində yerləşir. 1920-ci il noyabrın 30-da Zəngəzur Azərbaycan və Ermənistan arasında bölünərkən dərə ətraf əraziləri ilə birlikdə Ermənistana verilmişdir. Dərənin qurtaracağından yuxarıda Malıbəy yurdları deyilən yaylaq var. Malıbəy Laçın rayonunun iri kəndlərindən biridir. Laçının Malıbəy kəndinin camaatının yaylaq yeri olub. Həmin vaxtdan da ermənilər oranı mənimsəyiblər.

**Ağoğlan məbədi -** Azərbaycan Respublikasının Laçın rayonunun Ağoğlan kəndində tarixi IV- IX əsrə aid edilən qədim alban məbədi. Coğrafi koordinatları: 39° 38 40" şm. en, 46° 24' 28" ş.u. Ağoğlan məbədi dəniz səviyyəsindən 1150 metr yüksəklikdə Ağoğlan çayının (Həkərinin sağ qolu) sağ sahilində qayalıq ərazidə yerləşir. Respublika əhəmiyyətli tarixi abidədir.

**Ağoğlan çayı** – Laçın rayonu ərazisindən axan dağ çayı. Mənbəyini Canqurtaran silsiləsinin (Qaragölü şimal tərəfdən əhatə edən dağ silsiləsi) şimal ətəklərindən götürür. Minkənd, Əhmədli, Qalaça, Bozlu, Qarıqışlaq, Sultanlar, Ağoğlan (Kosalar), Malıbəy, Zabux kəndlərinin yaxınlığından keçərək Zabux yaxınlığında Suqovuşan adlanan yerdə Həkəri çayına qovuşur. Çayda qızıl balıq , çay xanısı (yerli əhali göy balıq deyir) yaşayır. Suyundan bağ və bostanları sulamaq üçün istifadə edirlər. Çaya bir çox kiçik dağ çayları da qovuşur. Çox vaxt çayın adı onun yanından keçdiyi kəndin adı ilə adlandırılır. Məsələn, Minkəndçay, Qarıqışlaq çayı və s. Tarixi mənbələrdə Ağvan (Alban ) çayı (Strabonun yazdığına görə), Zəngəzur qəzasının xəritələrində Ağoğlan çayı kimi qeyd olunub.

**Atlıgəzən dağı** – Laçın rayonunun Sadınlar kəndini cənubdan və cənub-şərqdən əhatə edən dağ silsiləsi. Dəniz səviyyəsindən 1500 -1700 m yüksəklidə olan bu dağ XX əsrdə ermənilərin torpaqlarımıza dəfələrlə hücumuna şahidlik etmişdr. Rayonun Hacılar və Sadınlar kəndlərini bir-birindən ayırır. Hərbi cəhətdən strateji əhəmiyyət daşıyan məntəqədir. Bu dağın zirvəsindən Sadınlar, Hacılar, Qarıqışlaq, Quşçu, Qılınclı kəndləri aydın görünür. Dağın şərq və şimal şərq tərəfləri "taxtalar" adlanan əkin sahələrindən ibarətdir. Bu sahələr qədim dövrlərdə əkin üçün düzəldilmişdir, uzaqdan baxdıqda dağın ətəyindən onun zirvəsinə doğru qalxan nəhəng pulləkəni xatırladır. Atlıgəzən toponiminin yaranması haqqında dəqiq məlumat yoxdur. Ehtimal ki, ərazi çox böyük olduğundan ona bu ad verilmişdir.

**Avazların yalı** – Ermənistan Respublikasının Gorus rayonunun Bayandur (Bəyəndur) kəndi ərazisində geniş bir sahəni əhatə edən otlaq-örüş sahəsidir. Azərbaycanlı əhali ermənilərin təcavüzü nəticəsində Bayandurdan deportasiya

edilməmişdən əvvəl (XX əsrin 20-ci illərindən əvvəl) burada yaşamış Avazlar nəslinə mənsub olmuşdur.

**Ayı dərəsi** – Qaragölün cənub şərqində dərə. Yaylaqda otlaq- örüş sahəsi. Qədim dövrlərdən torpaqlarımız işğal olunana qədər Laçın rayonunun Sadınlar, Hacılar, Qarıqışlaq kəndlərinin otlaq örüş sahəsi olmuşdur.

**Bayandur** – XX əsrin əvvəllərinə qədər Yelizavetpol quberniyasının mərkəzi Gorus şəhəri olan Zəngəzur qəzaslında ermənilərlə azərbaycanlıların birgə yaşadığı kənd. Tarixdən məlum olduğu kimi 1828-1830-cu illərdə xaricdən köçürülüb gətirilən ermənilərin bir hissəsi Bayandur (Bəyəndur), Xəznəvar ( ermənilər Xoznavar deyirdilər) və Xənəzək (ermənilər Xnatsax deyirdilər) kəndlərində yerləşdirilmişdi. O dövrə qədər Bayandur (Bəyəndur) kəndinin indiki mağaza yerləşdiyi ərazidən aşağı hissəsində zeyvəlilərin , dükandan yuxarıda yerləşən hissəsində isə minkəndlilərin ulu babaları yaşayırdılar (Zeyvə və Minkənd Laçın rayonunun kəndləridir). XX əsrin əvvəllərində ermənilərlə azərbaycanlıların savaşında azərbaycanlı əhalinin bir qismi Minkəndə, bir qismi də Zeyvə kəndinə köçmüşlər. Beləliklə, əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Bayandur kəndinin əhalisi etnik cəhətdən tamamilə ermənilərdən ibarət olmuşdur. 07.05.1969-cu ildən ermənilər tərəfindən kəndin adı dəyişdirilib "Vağatur" qoyulmuşdur.

*"Bayandır adının kökü əski türk sözü olan "bay"-dır. Mənası "varlı", "zəngin"dir. Bu məna indi də qalır. "OrxonYenisey" abidələrində də bay sözü göstərilən semantik mənada işlənmişdir. "Oğuznamə"də də Bayandur "çox təminatlı", "varlı" kimi izah edilmişdir. Sözün tərkibindəki –an şəkilçisi isə bəzən bitişdirici bəzən də sözdüzəldici şəkilçi kimi işlənmişdir*

*Salman Mümtaz isə bay sözünü -varlı, böyük, bəy mənasında açıqlamışdır*".

(**Vikipediya azad ensiklopediya**).

"*Ermənistandakı Bayandur Azərbaycanlı kəndi olub, əvvəllər Gəncə quberniyasına Zəngəzur qəzasına daxil olmuşdur. Kənd Xanazax (Xənəzək – Z. O) sovetliyinə daxil idi. 1897-ci ildə Bəyəndur kəndində 153 nəfər azərbaycanlı əhali olmuşdur. 1918-ci il milli qırğınından sonra azərbaycanlılar kənddə tamamilə qırılmış, qovulmuş, kənd erməni kəndinə çevrilmişdir. 1969-cu ildə isə ermənilər kəndin adını dəyişib Vağadur qoymuşlar*".(**Vikipediya azad ensiklopediya**).

Doğrudan da kəndin adını göstərən lövhədə ermənicə yazıdan sonra rus dilində "Vaqatur" yazılmışdı.

Bayandur kəndinin adı ilə bağlı tədqiqatçıların fikri ilə yanaşı əfsanələr də var; bunlardan biri belədir:

" Rəvayətə görə şah döyüşdə xüsusi qəhrəmanlıq göstərmiş sərkərdəsinə torpaq bağışlayaraq deyir ki, get haranı bəyənsən orada da dur. O da axtara-axtara gəlib Bayandurun indiki yerində dayanır. Buranı bəyənir. Odur ki, bu yerin adı Bəyəndur adlanır ki, sonralar da dəyişilib Bayandur adlandırılmışdır". Əlbəttə bu folklordur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

O dövrdə kənddə yaşamış və XX əsrin əvvəllərində kəndin ən mötəbər və imkanlı insanlarından olan Molla Məhəmmədin tikdirdiyi yeddi otaqlı kürsülü ev 1992-ci ilə qədər qalmışdı. Sovet dövründə Laçının Bayandura (Bəyəndura) yaxın Hacılar, Kosalar, Sadınlar kəndlərinin əhalisi qonşu erməni kəndləri ilə sıx əlaqə saxlayırdılar. Bu kəndlərin əhalisinin bir-birinə gediş-gəlişi var idi. Bayandurun (Bəyəndurun) yaşlı ermənilərinin dediyinə görə Molla Məhəmmədin evi Şura hökumətinin ilk vaxtlarında məktəb binası kimi istifadə olunmuşdu. Bundan əlavə kəndin türk-müsəlman əhalisinə məxsus qəbiristanlıq, kəndin ətraf ərazilərində olan yer-yurd adları bu gün də öz adlarını saxlamışdır: Böyük Ağdərə, Dolayı yurd, Sınıq bulaq, Qara bulaq, Susuz yal, Qanlı quzey, Tovla çuxuru, Avazların yalı, Dadməlik, Uzun güney, Qaraquşun yalı və s.

**Boz dağ (Canqurtaran silsiləsi) –** Qaragölün şimal-şərq tərəfində dağ massivi. Dağa yaxın erməni kəndləri yoxdur, yerli azərbaycanlı əhali belə adlandırır. Bu da dağın səthini örtən və çox böyük ərazini əhatə edən dağ daşlarının həmin dağa verdiyi boz rənglə əlaqədardır. Dağın səthinin çox hissəsini örtən bu “ daş dənizinə” çınqıl deyilir. Çınqıllar arasında sığınacaq yerləri də var. Bunları el arasında “ Qaçaq yuvaları” da adlandırırlar. Azərbaycanda qaçaqçılıq hərəkatı dövründə yaradıldığı ehtimal olunur. Aşağı ətəklərində Göy bulaq, Sona bulağı, Novlu yaylaqları yerləşir, yuxarı tərəfi Böyük İşıqlı dağına qədər uzanır. Məşhur Oyuqlu bulaq, Çır-Çır bulaqları bu dağda yerləşir. Dağ dəniz səviyyəsindən 2500-3000 m-ə qədər yüksək olduğu üçün sərt iqlimi var. Silsilənin ən hündür nöqtəsi Canqurtaran adlanır. Zəngəzur qəzasına aid olan xəritələrdə (**1905-1907 –ci illər xəritəsi**) Boz dağ bütövlükdə Canqurtaran adı ilə qeyd olunmuşdur. İşğala qədər otlaq-örüş sahəsi kimi istifadə olunurdu.

**Böyük İşıqlı dağı** – Qaragölün şimal-qərbində Azərbaycanla Ermənistan sərhədində hündür dağ. Dəniz səviyyəsindən 3552 metr hündürlükdə, Qarabağ vulkanik yaylasında yerləşir. Dağ üçün sərt iqlim xarakterikdir. Belə sərt iqlim şəraitində ancaq Qafqaz uları ( yerli əhali onu fır kəklik, yaxud dağ kəkliyi adlandırırdı) yaşaya bilir. 1992-ci ildə Ermənistan Silahlı qüvvələri tərəfindən işğal olundu. 2020 –ci ildə 44 günlük müharibə nəticəsində azad olunub.

**Buzovçu dərəsi** – Ermənistan –Azərbaycan sərhədində Ermənistana məxsus olan dərə. Xoznavar (keçmiş adı Xəzinəvar/Xəznəvar) dərəsinin yuxarı hissəsi. Dərə Qaragölün 750-800 metrliyinə, Cilin (Cilli gölün) isə 300 metrliyinə qədər uzanır. Dərədə çoxlu bulaqlar var. Tarixi baxımdan onların ən məşhuru Gur bulaqdır. Qədim dövrlərdə çəkilmiş və el arasında Gavur Arxı kimi tanınan arxdan axan su mənbəyini bu bulaqdan götürür. Azərbaycanla Ermənistan arasında olan sərhəd xətti dərənin güney tərəfindən keçirdi. Güney otlaq sahəsi kimi istifadə olunurdu. Gur bulaq Gavur arxının bir hissəsi ilə Ermənistan ərazisinə qatılmışdır.

**Cəddə yolu** – Minkənd – Gorus dağ yoluna verilən addır. Cəddə (ərəbcədən tərcüməsi “ nənə ” deməkdir) yolu at, ulaq və araba yoludur. Yaşlıların dediyinə

görə “cəddə yolu” – “ böyük yol”, “iri yol”, “ana yol” mənasındadır. Keçmiş zamanlarda Kəlbəcərdən, Şuşadan gələn dağ yolları Minkənddə birləşib, Cəddə yolu ilə Ağ qayanın dərəsi, Qazı gölü və Gorus dərəsindən keçib Köhnə Gorusa, oradan da Naxçıvana gedirdi. Bu yol Ermənistanla sərhəddə yerləşən Laçın rayonunun Sadınlar kəndinə məxsus ərazidən keçir və Dövlət sərhədini Qəysəfə adlanan yerdə kəsir. Əvvəllər bu kəsişmə Xoznavar çayının yüz metrliyində idisə, 1987-ci ildə Sadınlar kəndinin Qəysəfə adlanan ərazisinin Ermənistana verilməsindən sonra sərhəd iki kilometrə qədər Azərbaycanın içərisinə doğru geri çəkildi. Cəddə yolu strateji əhəmiyyətli yol idi. Sovetlər dönəmində bu yol genişləndirildi. O yolla maşınlar da hərəkət edirdi. Cəddə yolundan Laçın rayonunun Sadınlar, Quşçu, Mirik, Əhmədli, Minkənd, Kamallı, Çıraqlı, Qarakeçdi, Ağbulaq və s. kəndlərin əhalisi istifadə edirdi. 44 günlük müharibə bitdikdən sonra yolun böyük bir hissəsi genişləndirilib (hərbi məqsədlər üçün).

**Cilli göl –** Qaragöl səmtdə Laçının üç Cilli gölü var ( Cil - göl və kiçik çayların üzünü örtən ot bitkisidir. Cil gölün səthini tamamilə (və ya qismən) örtdüyündən ona Cilli göl deyilir).

Bunlardan biri Qaragölün cənub- şərqində yerləşir. El arasında bu gölə Cil deyilir və sahəsi 23,5 hektara yaxındır (Suyunun artıb azalmasından asılı olaraq sahəsi dəyişir). Dəniz səviyyəsindən 2666 metr yüksəklikdə, Keçəl dağın (Kiçik İşıqlı dağına el arasında Keçəl dağ deyirlər) şərq ətəyində yerləşir. Coğrafi koordinatları 39° 35' 44" şm.en. və 46° 14' 39" ş.u. –dur. Yağış və qar suları ilə qidalanır. Bundan asılı olaraq gölün ölçüləri fəsillərdə dəyişilir. Yaz –yay aylarında anqutlar, yaşılbaş və boz ördəklər, qazlar uçub gəlir. Xoznavar çayı mənbəyini bu göldən götürür.

İkinci Cilli göl (dəniz səviyyəsindən 2070 metr yüksəklikdə) Dəvəboynu dağının ətəyində Azərbaycan –Ermənistan dövlət sərhədinin 20 metrliyində yerləşir. Sadınlar və Hacılar kəndlərinin əhalisi ona Hacılar gölü deyirlər (bu kəndin yaylaq yeri olduğuna görə). Sönmüş vulkan kraterində yağış və qar sularından əmələ gəlmişdir və ən böyük uzunluğu 388 metr, ən böyük eni 300 metrdir. Bu gölün ölçüləri də ilin fəsillərindən asılı olaraq dəyişir. Səthi cillə örtüldüyünə görə Cilli göl də deyirlər.

Qədim dövrlərdə çəkilmiş Gavur arxı vasitəsilə gölə Qaragöldən şərq tərəfə aşağıda Məscid dərəsindəki Gur bulaqdan su axıdılırdı. Sovetlər dönəmində göl və onun ətrafındakı otlaq sahələri Hacılar camaatının istifadəsinə verilmişdi.

Üçüncü Cilli göl çox da böyük deyil. Uzunluğu 60-70 m-ə, eni isə 40-50 metr-ə bərabərdir. Laçın rayonundakı Qarıqışlaq kəndinin yaylaq yeri idi. Ağyar dağının qərbində dəniz səviyyəsindən 1990 metr yüksəklikdə yerləşir.

Yuxarıda qeyd etdiyimiz kimi hər üç gölün sahəsi ilin fəsillərində dəyişir.

**Dadməlik** – Qərbi Azərbaycanın Bayandur kəndinin şimalında dəniz səviyyəsindən 1806 metr hündürlükdə yerləşən dağ. Bayandur kəndi onun cənub

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

ətəklərində yerləşir. "Dadməlik" adı haqqında yerli əhali arasında belə bir rəvayət danışırdılar:

*"Keçmiş zamanlarda bu mahalın böyüyü olan məlik vergi yığanları Bayandura göndərir. Əhali vergini ödəməkdən imtina edir. Vergi yığanlar bunu gəlib məlikə deyirlər. Məlik dəstəsi ilə kəndə gəlir. Əmr edir ki, bütün camaat bir yerə toplansın. Camaat toplaşdıqdan sonra iri bir xırmana qaratikan kolu döşətdirir. Dəstəsinə əmr verir ki, onları döyə-döyə ayaqyalın qaratikan kolunun üstü ilə o yan, bu yana hərəkət etməyə məcbur etsinlər. Bu xırman da həmin dağın ətəyində imiş. Camaatın ah-naləsi, fəryadı göyə ucalır, dağı aşır, ətrafa yayılır. İnsanlar " dad məlik əlindən" deyərək qışqırırlar. Bu dağın da adı beləcə Dadməlik qalır*".

Xalq arasında Dadməlik haqqında başqa bir əfsanə də var: " *Bu mahalın böyüyü olan bir zalım məlik olub. Mahalın əhalisinə əmr edir ki, mənə elə bir dağ düzəltsinlər ki, ətrafda yerləşən bütün dağlardan yüksək olsun. Oradan baxanda mahalın hər yeri görünsün. Camaat illərlə zülm çəkə-çəkə torpaq daşıyıb indiki Dadməlik dağını düzəldirlər. Məliyin əlindən zülm çəkən xalq "Dad məliyin əlindən" deyirmişlər. Dağın adı buradan da Dadməlik qalıb".*

**Dam yeri** – Azərbaycan – Ermənistan sərhədində Laçın rayonunun Sadınlar kəndinin inzibati ərazisinə daxil olan və dəniz səviyyəsindən 2070 metr yüksəklikdə Cəddə yolunun (**bax:Cəddə yolu**) üstündə yerləşir. Yerin adı XX əsrin əvvəllərində burada erməni qəsbkarlarının hücumundan Sadınlar kəndini müdafiə edən insanların düzəltdikləri istehkam tikintisinin adından götürülmüşdür. Qalıqları dövrümüzə gəlib çatmasa da yeri qalmışdı. Burada da Sultanbəyin göstərişi ilə səngərlər qazılmışdı.

**Dəvəboynu yüksəkliyi** – Laçının Ermənistanla sərhədində, Hacılar gölünün (**bax: Cilli göl**) qərbində dəniz səviyyəsindən 2320 metr yüksəklikdə yerləşən dağ zirvəsi. Boz dağ silsiləsininin cənub –şərqində yerləşən bu dağın forması dəvənin boynunu xatırlatdığına görə babalarımız ona bu adı vermişlər. Gavur arxı onun şərq yamaclarından çəkilib. Strateji əhəmiyyətli yüksəklikdir.

**Dik Daş** – Azərbaycanın Laçın rayonunun Sadınlar kəndinin Ermənistanla sərhədində yerləşən dağ massivi. Dəniz səviyyəsindən 1950 metr yüksəklikdə olan strateji ərazidir. Adı zirvədə olan böyük bir daşın olması ilə bağlıdır. Atlıgəzən massivi qurtardıqdan sonra Dik daş massivi başlayır. Bu dağ massivinin şərqində 1960-cı illərdə süni göl düzəldilmişdi. Həmin gölü Aleksey adlı rus buldozerlə düzəltmişdi. Adına Alekseyin gölü deyirdilər. Göldən hava xətti ilə bir kilometr şərqdə yerləşən Hacılar kəndinə təsərrüfat suyu verilirdi. Süni gölü su ilə təmin etmək üçün Haçılar gölündən (bax: Hacılar gölü) əvvəllər arx, sonralar isə boru ilə su çəkilmişdi. Bu iri dağ massivinin Cəddə yoluna yaxın hissəsinə el arasında "Urus yalı", Sadınlar kəndindən gələn yola isə "Urus yolu" deyirdilər. Zirvədə Sultanbəyin göstərişi ilə qazılmış səngərlərin izləri qalıb. Bir faktı da qeyd etmək yerinə düşər ki, səngərləri əhatə edən dağ daşlarının oyuqlarında çoxlu boş beşatılan və üçatılan patronlarının gilizləri pərçim edilmişdir. Şahidlərin (o hadisələrin iştirakçıları olan

yaşlı insanların) dediklərinə görə bu gilizlər düşməni məhv edən patronların gilizləri olmuşdur. Dikdaş dağının cənub yamacları Ermənistan Respublikasının Gorus rayonunun Xoznavar kəndinə, Şimal yamacları (əkin və otlaq sahəsi) Azərbaycan Respublikasının Laçın rayonunun Sadınlar kəndinin ərazi vahidliyinə daxildir.

**Dolayı güney** –Qərbi Azərbaycan ərazisində türk-müsəlman əhalisi deportasiya edilmiş Bayandur kəndinin inzibati ərazi vahidliyinə aid olan və yarımyaylaq kimi istifadə olunan geniş ərazi. Bayandur kəndinindən 4-5 kilometr qərbdə, Azərbaycan - Ermənistan sərhədindən isə hava xətti ilə 3 kilometr cənubda yerləşir. Ən yüksək yeri dəniz səviyyəsindən 2057 m yüksəklikdədir.

**Əriməz** – Qaragölün şimal – qərbində dağ. Dəniz səviyyəsindən 3288 metr yüksəklikdə yerləşir. Zəngəzur ötən əsrin əvvəllərində Ermənistanla Azərbaycan arasında bölünən zaman Əriməz Azərbaycan ərazisində qalmışdır.

**Gavur arxı** – Qədim zamanlarda Qaragöldən şərqdə dəniz səviyyəsindən 2070 – 2100 metr yüksəklikdə 5 kilometrə yaxın uzunluğu olan arx. Arxın çəkildiyi dəqiq tarixi bilinmir. Tarixçi alim Ziyadxan Nəbibəylinin yazdığına görə Qara Murtuza bəyin dövründə arx Murtuza bəy tərəfindən əsaslı təmir edilmişdir (**bax: Z. Nəbibəyli. " Zəngəzurun altun tacı Laçın"**).

Bu arx vasitəsilə axan sudan Cilli göl (Hacılar gölü), Qoşnavr , Qaraçılar, Qarıqışlaq Cilli gölü yaylaqlarına köçmüş elat yaylaq dövrü istifadə edirdilər.

**Göy bulaq** – Azərbaycan Respublikasının Laçın rayonu ərazisində, Boz dağın şərq ətəyində, Qaraçılar düzünə bitişik gözəl mənzərəsi olan yaylaq, dədə babalarımızın yurd yeri. Adı ərazidə olan sərin sulu Göy bulağın adından götürülmüşdür. Sovetlər dönəmində rayonun Quşçu və Mirik camaatının yaylağı olmuşdur. Bulaqdan bir az aralı qədim qəbiristanlıq var. Qəbiristü daşlarda təsvir olunmuş qoç fiqurlarını ermənilər dağıdıb aparmışlar.

**Gözət təpəsi** – Azərbaycan – Ermənistan sərhədinə yaxın (hava xətti ilə təxminən 250-300 metr), Laçın rayonunun Sadınlar kənd inzibati ərazisinə daxil olan dağ zirvəsi. XX əsrin əvvəllərində (1905-1907-ci və 1914-1920-ci illərdə) Sadınlar və Hacılar kəndlərinin müdafiəsini təmin etmək məqsədilə Sultan bəyin göstərişi ilə yerli əhalidən təşkil olunmuş özünümüdafiə dəstəsinin keşik çəkdiyi yer. Strateji yüksəklikdir. Hacılar kəndinin qərbində, Sadınlar kəndinin cənub qənşərində, ən hündür yeri dəniz səviyyəsindən 1740 metr yüksəklikdə yerləşir. Zirvədə Sultanbəyin qazdırdığı səngərin yeri 1992-ci ilə qədər qalırdı. Buna görə də təpəyə Gözət təpəsi deyirlər.

**Hacılar** – Azərbaycan Respublikasının Laçın rayonunun Hacılar inzibati ərazisinə daxil olan kənd.

"1992-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilib. 1 dekabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətindədir. Hacılar kəndi Qarabağ yaylasındadır. XIX əsrdə Qarıqışlaq kəndinin binə yerlərindən biri olan bu ərazidə Hacı qəbri adlanan yer də var. Yaşayış məntəqəsi qızılbaşların

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

zülqədər tayfasının hacılar tirəsinə mənsub ailələrin məskunlaşması nəticəsində yarandığı üçün belə adlandırılmışdır. Etnotoponimdir". (bax : **Vikipediya azad ensiklopediya**).

Lakin kəndin yaşlı adamları və ziyalıları kəndin məskunlaşması haqqında belə bir fikir söyləyirlər ki, "Niyaməddin Məhəmməd adlı şəxs Cənubi Azərbaycandan məlum olmayan səbəbdən köç edib kəndin şərqində yerləşən iki su mənbəyinin arasında məskunlaşıb, burada ailə qurub, nəsil-şəcərəsini genişləndirib. İllər sonra Həcc ziyarətinə gedən Niyaməddin Məhəmməd geri döndükdən sonra Hacı deyərək çağrılır " (**Kərəm Surxayoğlu. Vətən, sənlə görüşməyə gəlmişəm. Bakı 2023**).

Hacılar kəndinin ərazisi Laçın rayonunun Sadınlar, Qarıqışlaq, Kosalar və Ermənistan Respublikasının Gorus rayonunun Xoznavar (Xəzinəvar) kəndləri ilə həmsərhəddir. Coğrafi koordinatları: 39°38'46" şimal en, 46°22'27" şərq uzunluğu. 1992-ci ilə qədər kənddə yaşayan əhalinin sayı 760 nəfərdən çox idi. Kəndin yerləşdiyi ərazidə olan maddi- mədəni, tarixi abidələr bu kəndin əhalisi türksoylu olan qədim yaşayış məskəni olduğunu göstərir.

**Həcətgə dərəsi** – Sadınlar dərəsinin bir qolu. Dərə öz adını Həcətgə dərəsinin orta hissəsində XX əsrin əvvəllərində erməni təcavüzü nəticəsində Qafanın Həcəti kəndindən köçüb bu yerlərə pənah gətirmiş ailələrin saldığı kiçik (təxminən 20-30 ailə) kəndin adından götürmüşdür. Onlara "Həcətidən gələnlər" (sonradan qısaldılmış şəkildə " Həcətgəlilər") deyirdilər. Kəndin xarabalıqları Həcətgə dərəsindəki Albaniya dövründən qalma, el arasında " Sınıq kilsə" deyilən abidənin yaxınlığında Qarıqışlaq Aralığı deyilən yerdə bu günümüzə qədər gəlib çatmışdır. 1918-ci ildə ermənilər tərəfindən qonşu Sadınlar, Hacılar kəndləri qarət edilib yandırıldıqdan sonra kəndin əhalisi köçüb ölkənin başqa yerlərinə getmişlər.

**Hələk** – Zəngəzur qəzasında XX əsrin əvvəllərinə qədər mövcud olmuş və əhalisi tamamilə etnik türklərdən ibarət olan qədim Azərbaycan kəndi. Erməni tarixçisi Adonun (Hovannes Ter-Martirosyanın) yazdığına görə 1905-ci il sentyabrın 22-də Hələk ermənilər tərəfindən tamamilə qarət edilib yandırılmışdır.

*" 1905-ci il sentyabrın 22-də Xoznavar və Xnaçax erməniləri ətraf kəndlərdən gələn silahlı dəstələrin köməyi ilə türk kəndlərinə hücum edərək* ***Bayandurda 50, Hələkdə 35, Kosalarda 25, Malıbəylidə 50, Cağacurda 40, Çaylıda 10, Kalavalaxda 25, Novruzluda 15*** *evi sakinləri ilə birlikdə yandırıb dağıtdılar. Birinci üç kənd isə tamamailə qarət edilir. (A-do, s.266)"*

Toponimin mənası haqqında məlumat yoxdur.

Hələyin xarabalıqları Xoznavar – Gorus yolinin sağ tərəfində Bayandur kəndindən 2 kilometr qərbdə, Bayandur çayının (az sulu dağ çayıdır) sol qolunun axdığı dərədə, Ağ dərənin başlanğıcından şimalda indiyədək qalmaqdadır. Zəngızurun bu ərazilərdə yerləşən Binə yeri, Arıxlar, Sümüklü, Novruzlu və s. kəndləri kimi Hələk də erməni terrorizmi nəticəsində yer üzərindən tamamilə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

silinmişdir. Ondan geri qalan yalnız Hələyin xarabalıqları, Hələyin qəbiristanlığı, Hələyin düzü adlarıdır.

**Hələyin qəbiristanlığı** – Ermənistan Respublikasının Gorus rayonunun Bayandur kəndi ilə Xoznavar kəndi arasında vaxtilə burada yaşamış türk müsəlman əhaliyə məxsus qəbiristanlıq. Xoznavar Gorus yolunun Bayandur dərəsinə dönən hissəsində yerləşir. Hələyin düzünün sol tərəfində yolun üstündədir. Qəbiristanlıqda daşdan yonulmuş qoç fiqurları ( başları sındırılmış halda) olan qəbir daşları var. Qəbiristanlıq ermənilər tərəfindən dağıntıya məruz qalmışdır.

**Hələyin düzü** – Bayandur kəndi ərazisində sahəsi 130 hektara yaxın düzəngah sahə. Bayandur kəndinin şimal- qərbində, Xoznavar kəndinin cənub – qərbində yerləşir. Bu yer adı XX əsrin əvvəllərinə qədər Bayandur kəndinin yaxınlığında mövcud olmuş, ermənilər tərəfindən xarabazarlığa çevrilmiş türk-müsəlman kəndi olan Hələk kəndinin əhalisinə məxsus olmuşdur.

**Xaç (Albaniya dövrünə aid qəbiristanlıq)** – Azərbaycan Respublikasının Laçın rayonunun Sadınlar kəndində qədim Albaniya dövrünə məxsus qəbiristanlıq. Azərbaycan Ermənistan sərhədindən 1,7 kilometr aralı, Sadınlar kəndinin qənşərindədir. Kəndin cənubunda Böyük Qaranlıq dərənin iki qolu arasında sıldırım qayalıqların üstündə iri bir taxtada yerləşir. Kəndin mərkəzindəki Alban xristian kilsəsi ilə arası 120-150 m –dir.

**Xoznavar (Xəzinəvar)** – Zəngəzurun Ermənistan ərazisində qalan, Laçın rayonunun Sadınlar, Hacılar, Kosalar və Ermənistanın Gorus rayonunun Bayandur kəndi ilə qonşu olan tarixi Azərbaycan kəndi. Yaşlı insanların dediyinə görə bu kəndin adı Xəzinəvar olmuşdur. Erməni mənbələrinin verdiyi məlumata əsasən, 1918-ci ildən bu kənddə yalnız ermənilər yaşayır.

*“ Kəndin qədim adı Xandaberd (Xaznavar/Xandaberd) olmuşdur. Kəndin adı qədim türk tayfalarından biri olan gençək(xaznaxandza) etnonimi ilə Azərbaycan dilində “ möhkəm istehkamı olan kənd”, “ qala ” mənasında işlənən “ var” birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Mürəkkəb quruluşlu toponimdir. 1828-ci ilə qədər burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişlər. Kənddə ermənilərlə yanaşı 1828-ci ildə 28 nəfər, 1873-cü ildə 86 nəfər1897-ci ildə 180 nəfər azərbaycanlı yaşamışdır.1918-ci ildə kənddə yaşayan azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qovulmuşlar ”* (**bax Vikipediya azad ensiklopediya** ) .

Lakin 1920-ci illərdə ermənilər tərəfindən qovulmuş azərbaycanlıların bir hissəsi “ ara düzələndən” sonra yenidən evlərinə qayıtmış, kollektivləşmə dövrünə qədər orada yaşamışlar. 1936-cı ilin qış aylarında onlar ermənilərin kollektivləşmə təklifinə etiraz etdikdə ermənilər onları deportasiya etmişlər. Kənddə azərbaycanlı əhaliyə məxsus evlərin xarabalıqları bu günə qədər də qalmaqdadır. Onu da qeyd edək ki, kənddə yaşayan azərbaycanlı əhali əsasən Təhməzli tayfasına mənsub idi. Kəndin o dövrdə seçilib-sayılan adamlarından Bəbiş bəyin, Əsgər bəyin

törəmələrindən Laçın rayonunun Sadınlar, Hacılar, Əhmədli, Qarıqışlaq və s. kəndlərində indi də yaşayırlar.

Kənd Xoznavar dərəsində yerləşir. Dərə Ağoğlan çayından Qaragölə otuz kilometrə qədər (hava xətti ilə təxminən 15 kilometr) böyük bir ərazidə uzanır. Bu kənddə də Albaniya dövründən qalma xristian məbədi var. Lakin sovetlər dönəmində ermənilər ondan ibadətgah kimi istifadə etmirdilər.

Dərədən Xoznavar (Xəzinəvar) çayı axır. Az sulu dağ çayıdır. Mənbəyini Qaragöl yaxınlığında olan Cilli göldən alır. Laçın rayonunun Kosalar kəndi yaxınlığında Həkərinin sağ qolu olan Ağoğlan çayına qovuşur. Suyundan təsərrüfat məqsədləri üçün istifadə olunur.

**Qanlı quzey** – Bayandur kəndi ərazisində yer adı. Yerin adı quzeyin sərt və keçilməz uçurumlu, həyat üçün təhlükəli olması ilə əlaqədardır. Ona görə də babalarımız bu yerin adını belə adlandırmışlar.

**Qaraçı yurdları. Qaraçılar zirvəsi-** Keçmişdə bu ərazilərdə mövcud olmuş Qaraçorluların (Qaraçorlu mahalı 1836- cı ildə ləğv edilmişdir) yaylaq yeri. Dəvəboynu dağının şimal ətəklərində Azərbaycan – Ermənistan sərhədinin təxminən bir kilometrliyində ən böyük uzunluğu 1950 m, ən böyük eni isə 950 m-dir. Dəniz səviyyəsindən 2195 m yüksəklikdə səfalı, mənzərəli yaylaqdır. Keçmişdə Dəvəboynu dağının cənub yamaclarından keçməklə indi Ermənistan ərazisində qalan Məscidin dərəsindən Gavur arxı vasitəsilə buraya su verilirdi. Zəngəzur iki yerə bölündükdən sonra Gavur arxı baxımsız qaldı, ara-sıra yaxınlıqdakı Cilli gölə su axıdılırdı. Bu dədə-baba yurd yerləri sovetlər dönəmində Laçın rayonunun Sadınlar kəndinin istifadəsinə verildi və biçənək sahəsi kimi istifadə olundu. Bitki örtüyü çox əsrarəngiz və zəngindir. Burada dağ laləsi, dağ zirəsi, qantəpər, çay çiçəyi (qızılçətir də deyirlər), boymadərən (qurdotu), kəklikotu, mayaotu və s. kimi dərman bitkiləri bitir.

**Qaraçörlü (Qaraçorlu) taxtaları** – Kosalar kəndinin inzibati ərazisinə aid və qədim dövrlərdə dağların yamaclarında düzəldilmiş əkin yerləri. Taxtalar dağın sinəsində pilləkənvari düəzldilmiş, dağın bir gədiyindən o biri gədiyinə qədər uzanan və müxtəlif ölçülərə malik olan dəmyə əkin sahələridir. Bu əkin sahəsinin düz hissəsi **taxta**, iki taxtanın arası isə **zahman** adlanır. Zahmanlar ağac, kol, ot bitkiləri ilə örtüldüyündən torpağın sürüşməsinin qarşısını alır.

Qaraçörlü taxtaları Qaraçorlu sultanlarının dövründə onların əkin yerləri olmuşdur.

**Qaragöl** – Qarabağ yaylasında özünəməxsus sərt iqlimə malik, Azərbaycanın ən gözəl yaylaqlarından biridir. Laçın rayonu ilə Ermənistan Respublikasının Gorus rayonunun sərhədində dəniz səviyyəsindən 2658 metr yüksəklikdə yerləşir. Gölün ən böyük üzunluğu 1950 metr, ən böyük eni isə 1250 metrdir. Azərbaycan SSR Nazirlər Sovetinin 17 noyabr 1987-ci il tarixli qərarı ilə Qaragöl respublikalararası dövlət qoruğu yaradılmışdır. Qoruğun su hissəsinin ümumi sahəsi 202,05 hektar, qoruğun

ümumi sahəsi isə 240 hektardır. İşıqlı Qaragölü Qarabağ vulkanik dağ silsiləsinin cənub hissəsində Həkəri çayının sağ qolu olan Ağoğlan çayının mənbə rayonunda Böyük İşıqlı dağının (3548 metr) şimal ətəyində, şimal- qərbdən Dəmirdaş və Kiçik İşıqlı (3452metr) dağı ilə şimaldan Canqurtaran (2790 m) dağı ilə, şərqdən isə alçaq moren tirəsi ilə əhatə olunmuşdur.

Gölün adının yaranması haqqında el arasında əfsanələr mövcuddur. Bunlardan biri haqqında görkəmli coğrafiyaçı alim Malik Mirzəyevin “ Doğma yurdu gəzə-gəzə” kitabında Qaragöl toponimi haqqında belə yazır: “ Bu gölün adı barəsində bir rəvayət də söyləyirlər. Deyilənə görə illərlə yaylaqları özünə məskən edən, hər bulağın başında süfrə açıb onun sularından içən, bu dağlara əbədi ülfət bağlayan çoban bir gün dağda yoxa çıxır. Bundan xəbər tutan el –oba da ona yas tutur. Duman –çiskin bu yerləri tərk etmir. Havalar açılandan sonra göldən xeyli aralı Qırxbulaq adlanan bulaqların birindən çobanın tütəyi tapılır. Belə məlum olur ki, çobanı gölün suları qoynuna çəkmiş, onu udmuş, tütəyi isə yeraltı axar Qırxbulağa gətirmişdir. Bundan sonra el –oba gölə Qara adı vermişdir”.

Tarixçi alim Ziyadxan Nəbibəyli “ Zəngəzurun altun tacı Laçın” adlı əsərində Qaragöl adının yaranmasını Qara Murtuza bəyin dövründə ( Qara Murtuza bəy Pənahəli xanın qoşunlarının sərkərdəsi olmuşdur, Pənahəli xan Şahın sarayını tərk edəndən sonra bir müddət onun yanında olmuşdur) döyüşlərin birində onun oğlunun şəhid olması və bu zaman Qaragöldə el-obanın qara bürünüb yas saxlaması ilə əlaqələndirir. Qara Murtuza bəy bütün qonaqlarını yaylağa köçdüyü zaman Qaragöl yaylağında öz çadırında qəbul edirdi. Qeyd edək ki, Qaragöldə qədim dövrlərdən mövcud olan türk-müsəlman qəbiristanlığını ermənilər buldozerlə dağıtmışdılar, xalqımızın bu yerlərdə olan bütün nişanələrini tamamilə məhv etmişlər.

**Qazı gölü** – Zəngəzurun Ermənistan respublikası ərazisində, Gorus şəhərinin şimalında Minkənd – Gorus yolunun üstündə göl. Keçmişdə dədə-babalarımızın yaylaq yerləri olub. Uzunluğu 790 m, eni orta hesabla 75 m-dir. Zəngəzurun iki yerə bölünməsindən sonra göl ətraf əraziləri ilə Ermənistana qalmışdır. Qar və yağış suları ilə qidalanır.

**Qətər (Qatar) qaya. Qəysəfə -** Qoşnavr gölündən aşağı gölün yerləşdiyi dağın tən ortasına dolanan qayalıq silsilə. Azərbaycan - Ermənistan sərhədində yerləşir. Ümumi uzunluğu 800 metrdən artıqdır. Sanki ovçu belinə bağlanmış patrondaşı xatırladır. Ona görə də qaya belə adlanır. Qayalıqdan aşağı düzənlik sahə Qəysəfə adlanırdı. Qəysəfənin adı Qətər qayanın adından götürülmüşdür (qatar kimi səf-səf düzülmüş qayalar “ qaya səfi”, “qəyə səfi” kimi (yerli əhalinin ləhcəsində “qaya” sözü “qəyə” kimi tələffüz olunurdu), yəni “qəyələrin səfi olan yer”). Zəngəzurun bölünməsi zamanı Qəysəfə düzünün bir hissəsi Azərbaycana, bir hissəsi isə Ermənistana qalmışdı. Azərbaycana qalan hissəsində kollektivləşmə dövründə iri ictimai tövlə tikilmişdi. Sadınlar kəndinin mal ferması yerləşirdi. 1987 - ci ildə ermənilər Moskvadakı havadarlarının köməyi ilə Qəysəfəni aldı və sərhədi Qətər

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 179-193*

qayanın altına qədər genişləndirdilər. İctimai tövləni də bünövrəsinə qədər sökdülər. Minkənd –Gorus yolu Qəysəfə düzünün düz ortasından keçir. Qəysəfə Xoznavar çayının sol sahilində yerləşir.

**Qoşnavr** – Azərbaycanın Ermənistanla sərhədində sönmüş vulkan kraterində dəniz səviyyəsindən 2140 metr yüksəklikdə yerləşən göl. Gölün ən böyük uzunluğu 340 m, ən böyük eni isə 210 m-dən artıqdır. “ Qoşnavr” sözünün mənası ilə bağlı bir çox mülahizə irəli sürmək olar. Bunlardan ən realı, həqiqətə yaxını belədir: Gölün yerləşdiyi ərazi dağın qaşındadır. Ehtimal ki, gölün adı “ Dağın qaşındakı nohur” mənası anlamına uyğun gəlir. Qoşnavr dağın qaşında yerləşir. Sadınlar kəndinin dədə-baba yaylaq yeri olub. Sovet dönəmində burada ictimai tövlə də tikilmişdi.

**Ağoğlan ( Kosalar)** – Azərbaycan Respublikasının Laçın rayonu ərazisində kənd. Laçın şəhərindən 26 kilometr cənub – qərbdə 39°38'32" şm. e., 46°24'38" ş.u. coğrafi koordinatlarda yerləşir. Dəniz səviyyəsindən 1138 -1177 m yüksəklikdə Bayandur və Xoznavar dərələrinin Həkərinin sağ qolu olan Ağoğlan çayına qovuşduqları ərazidə yerləşir.

Kəndin adı Kosalar tayfasının adından götürülmüşdür. Kəndin mövcud olduğu bütün dövrlərdə əhalisi etnik türklərdən ibarət olmuşdur.

**Məscid** – Qaragölün şərqində Xoznavar dərəsinin sağında XVII-XVIII əsrlərdə tikilmiş və yaylaqda müsəlman əhalinin ibadəti üçün nəzərdə tutulmuş məscid. Sovet dönəmində ermənilər tərəfindən tamamilə dağıdılmış və izi itirilmişdir. Xoznavar dərəsinin ona yaxın hissəsi Məscidin dərəsi adlanır. Məscidin yerləşdiyi ərazi isə bu gün də məscidin düzü adlanır. Ermənilər məscidin binasını söküb yox etmişlər, məkanın yalnız adı qalmışdır..

**Nəzələ yurd** – Laçın rayonunun Sadınlar kəndində qəbiristanlıq. Kəndin cənub-şərqində yerləşir. “ Nəzələ” sözü ərəbcədən tərcümədə “ ruhların məskəni”, “ ruhların dolaşdığı yer” mənasındadır.

**Novlu bulağı yaylağı** – Sadınlar kəndinin əhalisinin yaylaq yeri. Qaragölün şərqində dəniz səviyyəsindən  metr yüksəklikdədir.

**Rus yalı** – Azərbaycan – Ermənistan sərhədində Azərbaycana məxsus yüksəklik. XX əsrin əvvəllərində Sultan bəyin və Cavad bəy Şıxlinskinin Andronikin qoşunlarının qarşısını almaq üçün istifadə etdikləri strateji yüksəklik. Dəniz səviyyəsindən 1903 metr yüksəklikdə olub Cəddə yolunun şərqində yerləşir. Sultan bəyin döyüşçülərinin qazdıqları səngərləri 1992 –ci ildə Sadınlar kəndinin könüllü özünümüdafiə dəstələri yeniləmişdilər.
ərazidə ermənilər XX əsrin əvvəlində Mehralı adlı şəxsi öldürdüyündən bura yerli əhali tərəfindən Mehralıölən, 1990-cı ildə isə Cavanşir adlı şəxsi öldürdüyündən Cavanşirölən də adlanırdı.

**Sadınlar kəndi** – Azərbaycan Respublikasının Laçın rayonunda kənd. Sadınlar kəndi Laçın şəhərindən 45 km qərbdə, Qara göl silsiləsinin şərq ətəklərində, 39° 39' 12" şimal en dairəsində, 46°20' 52" şərq uzunluğunda Sadınlar dərəsi adlanan

böyük bir dərədə, uca dağların əhatəsində dəniz səviyyəsindən 1590 m yüksəklikdə, yaylaq yollarının üstündə əsrarəngiz bir guşədə yerləşir.

Kənd Laçın rayonunun Qarıqışlaq, Quşçu, Hacılar və Ermənistanın Xoznavar kəndi ilə həmsərhəddir. Kənddən 5 km qərbdə Qoşnavr yaylağı, ona bitişik Qaraçılar düzü, Quru dərə, Novlu bulaq, Qaragöl Sadınlar əhalisinin yaylaq yerləridir.

Kəndin mərkəzində Qədim Alban məbədi yerləşir. Bu məbədin uzunluğu təqribən 17 m 50 sm, eni 5 m 70 sm-ə yaxındır. Məbədin içəri tağlarında Alban əlifbası ilə yazılmış daş kitabələr var. Qarşı tərəfdən məbədin şərqində daşlar üzərində günəş və insan şəkilləri çəkilmişdir. Məbədin daşları üzərində albanlara məxsus xaç şəkilləri həkk olunmuşdur. Məbəd Sovet hakimiyyəti illərində kolxoz anbarı kimi istifadə olunurdu. 1980-ci ildən sonra təmir olunub mədəniyyət evi kimi istifadə olunmağa başladı. Kəndin qənşərindəki Alban dövrünə aid olan və yerli əhalinin "Xaç" adlandırdıqları Alban qəbristanlığında qəbirüstü daşlar üzərində eyni ilə kilsədəki kimi şəkillər həkk olunmuşdur. Təəssüf ki, zəngin tarixə malik bu ərazilərin tarixi demək olar ki, heç öyrənilməmişdir. Kəndin kənarında yerli əhalinin "Sulu Kaha" adlandırdıqları, uzunluğu 45metr, eni 16-18 metr olan təbii mağara vardır. Mağaranın içərisinə iri qaya parçaları uçulub-töküldüyündən mağaranı öyrənmək mümkün deyil. Amma mağarada tapılmış və laqeydlik nəticəsində dağıdılmış insan və heyvan sümükləri, mağaranın maraqlı tarixə malik olduğunu göstərir.

**Sadınlar dərəsi –** Sadınlar kəndinin yerləşdiyi dərə. Dərə Qarıqışlaq kəndinin bir kilometrliyindən başlayıb şaxələnərək Qoşnavr, Qaraçılar, Cilli göl (Qarıqışlaq Cilli gölü) yaylaqlarına qədər geniş bir ərazidə uzanır. Adı dərədə yerləşən Sadınlar kəndinin adından götürülmüşdür. Dərədə Dəmirovlu pir, “ Sınıq kilsə” , Sadınlar kəndinin mərkəzində Alban monastrı, Sadınlar və Həcətgə dərələrinin qovuşduğu yerdə tamamilə uçub dağılmış qədim sovmə kimi Albaniya dövründən bu günümüzə qədər gəlib çatmış tarixi abidələr vardır.

**Sultanlar** – Azərbaycan Respublikasının Laçın rayonunda kənd. Laçın şəhərindən 30 kilometr cənub qərbdə Həkəri çayının sağ qolu olan Ağoğlan çayının sol sahilində dəniz səviyyəsindən 1106 metr yüksəklikdə 39° 38' 29" şimal en, 46° 25 24" şərq uzunluğu coğrafi koordinatlarda yerləşir.

Sultanlar kəndinin adı müxtəlif dövrlərdə Hüsülü, Əsədlər, Əsəd-Sultanlar olmuşdur. Mənbələrdə adı Sultanlar, Sultanlı, Sultankənd kimi də qeydə alınmışdır. Qədim tarixə malik olan kənd Qaraçorlu mahalının mərkəzi olmuşdur. Yaşayış məntəqəsi Qaraçorlu tayfasından Həmzə sultanın adı ilə adlandırılmışdır.

Sultanlar kəndi 1992-ci il Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilənə qədər kənddə Həmzə sultanın tikdirdiyi XVIII əsrə aid Həmzə Sultan sarayı qalırdı. İşğal dövründə ermənilər sarayın əvvəlki görkəmini dəyişməklə bərpa edib, otelə çevirmiş, adını isə Melikatun qoymuşlar. Tədqiqatçılar sarayın 1761-ci

ildə Qaraçorlu sultanlığının naibi olan Həmzə Sultan tərəfindən tikdirildiyini bildirirlər.

**Sultan bəyin səngərləri** – XX əsrin əvvəllərində ermənilərin torpaqlarımıza hücumlarını dəf etmək üçün dağların strateji yüksəkliklərində Sultan bəyin göstərişi ilə qazılmış səngərlər. Bu sənğərlərin izləri Pirin yalı (Hacılar kəndinin ərazisi), Gözət təpəsi, Dik daş, " Urus yalı", Dam yeri, Dəvəboynu (Sadınlar kəndinin inzibati əraziləri) və s. yüksəkliklərdə qalmışdı. Səngərlərin ətraflarındakı dağ daşlarının oyuqlarında çoxlu boş beşatılan və üçatılan gilizləri görmək olardı.

**Uzun yal** – Babalarımızın ad verdiyi bu yal Ermənistanın Gorus rayonunun Bayandur kəndi ərazisindədir. Uzunluğu 3 kilometrə yaxın olan bu dağlıq ərazinin ən hündür yeri dəniz səviyyəsindən 2129 metr yüksəklikdədir. Otlaq örüş sahəsi kimi istifadə olunurdu.

**Vəli obası** – Kosalar kəndinin əvvəlki yeri. Bayandur dərəsinin Azərbaycana məxsus olan hissəsində yerləşir. İndiki Kosalar kəndindən təxminən 2,7 kilometr qərbdə yerləşir. Xarabalıqları bu günə qədər qalmaqdadır. Ərazidə ilk dəfə məskunlaşan Vəli adlı şəxsin adınadır.

**Vəli düzü** – Xoznavar və Bayandur kəndləri arasında düzəngah sahə. Minkənd-Gorus yolunun (qədim Cəddə yolunun) sol tərəfində yerləşir. Keçmişdə Vəli obası adlanan kəndin ərazisi olduğu ehtimal olunur.

## Ədəbiyyat.

1. Ziyadxan Nəbibəyli. Zəngəzurun altun tacı Laçın. Bakı, 2009
2. Malik Mirzəyev. Doğma yurdu gəzə-gəzə. Bakı, "Maarif" nəşriyyatı 1990
3. 1905-1907-ci illər Zəngəzur qəzasının xəritəsi.
4. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I, II cildlər, Bakı, 2004.
5. Zəngəzur Cəmiyyətləri birliyi saytı.
6. M.Tapdıqoğlu. Laçın toponimləri, Bakı -2005
7. Ə. Vəliyev. Budağın xatirələri. Bakı 1975.
8. Azərbaycan dilinin dialektoloji lüğəti, Şərq-Qərb, Bakı-2007.

**Rəyçi: dosent Vaqif Saleh oğlu Allahverdiyev**